**UOT:** 336;336.01;336.1;336.741.28;336.7
**JEL:** H-56

**MUSAYEVA C. Q.**
Mingəçevir Dövlət Universiteti
Iqtisadiyyat kafedrasının dosenti
**E-mail:** *c-m-l79@mail.ru*

# MİLLİ İQTİSADİYYATIN TƏHLÜKƏSİZLİYİ: TƏHLÜKƏLƏR VƏ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI MƏSƏLƏLƏRİ

**Xülasə**

**Tədqiqatın məqsədi.** Ölkənin iqtisadi təhlükəsizliyinə təsir göstərən əsas göstəricilərin tədqiqi

**Tədqiqatın metodologiyası.** Ümumiləşdirmə, analiz, statistik və qrafik metodlar

**Tədqiqatın nəticəsi**. Insan amili, xarici borc, gizli iqtisadiyyat və digər göstəricilər üzrə təhlillər aparılmışdır.

**Açar sözlər***: iqtisadi təhlükəsizlik, kölgə iqtisadiyyatı, xarici borc, insan amili, rəqabət qabiliyyətlilik*

## GİRİŞ

Qloballaşma və inteqrasiya prosesinin vüsət aldığı bir zamanda dünya təsərrüfatı sistemində fəaliyyət göstərən hər bir milli iqtisadiyyatın, o cümlədən dövlətin üzləşdiyi əsas problemlərdən biri iqtisadi təhlükəsizliyin təmin edilməsi, rəqabət mühitinə davamlı və dayanıqlı iqtisadi sistemin yaradılmasıdır. İqtisadi təhlükə və ya iqtisadi təhlükəsizlik anlayışına həm klassik, həm də müasir iqtisadçı alim və tədqiqatçılar tərəfindən birmənalı qəbul edilmir və ona müxtəlif yanaşmalar vardır. İqtisadi təhlükəsizlik problemlərini araşdıran tədqiqatçılar belə hesab edirlər ki bu, milli mənafeyi qorumağı bacarmaq, sosial yönümlü siyasət yeritmək, hətta daxili və xarici inkişaf proseslərinin ən əlverişsiz şəraitində belə ölkənin iqtisadi təhlükəsizliyini təmin etməkdən ibarətdir. Çünki, ölkənin müstəqilliyinin qorunub saxlanılmasının ilkin şərtlərindən biri onun iqtisadi təhlükəsizliyinin təmin edilməsidir. İqtisadi təhlükəsizlik eyni zamanda ölkənin davamlı və dayanıqlı inkişafının, iqtisadi artım dinamikasının, dünya təsərrüfatı sistemində mövqeyinin, rəqabətə davamlılığının əsas əlamətlərindən və ya şərtlərindən biri kimi qiymətləndirilir.

Hər bir ölkənin iqtisadiyyatının özünəməxsus xüsusiyyətləri və inkişaf mərhələləri olduğu üçün onun problemlərinin də spesifik xüsusiyyətləri vardır. Buna görə də iqtisadi təhlükəsizlik milli iqtisadiyyatın inkişaf səviyyəsindən, onun spesifik xüsusiyyətlərindən, əhalinin milli-mənəvi dəyərlərindən, dövlətin həyata keçirdiyi sosial siyasətdən və digər müxtəlif amillərdən asılıdır. Azərbaycanda iqtisadi təhlükəsizliyin təmin olunması strategiyası Azərbaycan Respublikasının Konstitutsiyası, Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyası və qəbul olunmuş digər normativ-hüquqi sənədlər əsasında həyata keçirilir.

Müasir şəraitdə hər bir ölkənin milli təhlükəsizliyinin təmin edilməsində onun strateji və qeyri strateji regionda yerləşməsi əsas amillərdən sayılır. "Ölkənin yerləşdiyi coğrafi şərait ona mühüm üstünlüklər verməklə yanaşı, eyni zamanda, onu bir sıra təhlükəsizlik problemləri ilə də üzləşdirir. Digər tərəfdən, milli iqtisadiyyatın təhlükəsizliyinin təmin edilməsinin özəyində ölkə ərazisinin bütövlüyü, əhalinin milli birliyi, milli şüuru, milli mentaliteti, siyasi sahədə maraqlarını ifadə edən milli iqtisadiyyatı dayanır"[1].

Bu gün Azərbaycan strateji mövqeyinə və iqtisadiyyatının gücünə görə, o cümlədən əmək resurslarına, sənaye potensialına və təbii sərvətlərinin zənginliyinə görə. Qafqazda güclü dövlətdir. Azərbaycan iqtisadi əlaqələrini milli maraqlarına uyğun genişləndirmiş, iqtisadi potensialından səmərəli istifadə istiqamətlərini müəyyən etmişdir. Qarşıya qoyulan məqsədlərə çatmaq üçün, gələcək inkişafın perspektivlərini müəyyən etmək üçün Azərbaycanın iqtisadi strategiya və iqtisadi təhlükəsizlik konsepsiyası sosial-iqtisadi inkişafa təhlükə törədə biləcək faktorların qiymətləndirilməsini, iqtisadi maraqları əks etdirən amilləri özündə birləşdirir.

İqtisadi inkişaf strategiyası ölkə iqtisadiyyatının davamlı inkişafını təmin edən tədbirlərin reallaşması mexanizmindən istifadəsi və iqtisadi islahatların həyata keçirilməsi ilə yanaşı, əhalinin maddi rifahının yaxşılaşdırılmasını, zəngin təbii sərvətlərdən səmərəli istifadə edilməsini, iqtisadiyyatın diversifikasiyasını şərtləndirir. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi yalnız dövlətin borcu deyil, eyni zamanda ayrı-ayrı milli iqtisadi subyektlər və mənəvi dəyərləri gözləyən hər bir vətəndaş bu sahədə maraqlarını gücləndirməlidir.

**İqtisadi təhlükə mənbələri.** Hər bir ölkənin iqtisadiyyatına həm daxili, həm də xarici təhlükə mənbələri təsir göstərir. Xarici təhlükə mənbələri aşağıdakı proseslər nəticəsində yaranır:

- ölkə ərazisində və ya regionda böyük dövlətlərin və iqtisadi güclərin iqtisadi və siyasi maraqların toqquşması, ölkə iqtisadiyyatına nəzarət uğrunda mübarizə;
- ölkəyə ucuz xammal, resurslar bazarı kimi yanaşma;
- dünya iqtisadiyyatında baş verən qeyri-sabitlik, maliyyə və iqtisadi xarakterli böhranlar;
- ölkə istehsalçılarının xarici bazarlardan sıxışdırılıb çıxarılması, onların rəqabətqabiliyyətliyinin aşağı olması;
- xarici iqtisadi və ticarət əlaqələrinin tənzimlənməsində buraxılan səhvlər;
- ölkənin əsas ixrac məhsullarının (xüsusən neft-qaz məhsullarının) dünya bazarında qiymətlərinin sürətlə aşağı düşməsi;
- xarici amillər və təsirlər nəticəsində ölkə valyutasının məzənnəsinin sürətlə aşağı düşməsi və inflyasiya baş verməsi;
- xarici istehsalçıların ölkədaxili bazarlarda inhisarçılığı ələ almaları;
- ölkəyə iqtisadi və siyasi motivlərlə bağlı embarqo, blokada, digər radikal sərt tədbirlər tətbiq edilməsi;
- düşmənçilik xarakteri daşıyan digər iqtisadi təxribatlar və sair.

Odur ki, müasir dövrdə ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması və xarici təhlükə mənbələrinin dəf edilməsi üçün ilk növbədə aşağıdakı tədbirlərin həyata keçirilməsi son dərəcədə aktuallaşır:

- xarici iri dövlətlər və iqtisadi güclərlə balanslı və neytrallaşdırıcı iqtisadi münasibətlərin qurulması;
- iqtisadiyyatın strukturunun deformasiyasının qarşısının alınması;
- xarici borcun, xarici investisiya və kreditlərin tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi və milli iqtisadiyyatın maraqlarına uyğunlaşdırılması;
- ETT və innovasiya fəallığının artırılması hesabına ölkənin iqtisadi subyektlərinin daxili və xarici bazarlarda rəqabətqabiliyyətliyinin gücləndirilməsi;
- tədiyyə balansının, idxal-ixrac nisbətinin sağlamlaşdırılması siyasətinin effektliyinin artırılması;
- idxaldan asılılığın, xüsusilə ərzaq idxalından asılılığın minimuma endirilməsi;
- ölkənin valyuta ehtiyatlarının artırılması və onlardan istifadənin effektliyinə nail olunması;
- cəmiyyətdə təbəqələşmənin güclənməsinin qarşısının alınması;
- iqtisadi münasibətlərin kriminallaşmasının vaxtında qarşısının alınması;
- beynəlxalq təşkilatlar və qurumlarla, ilk növbədə beynəlxalq maliyyə və iqtisadi təyinatlı təşkilatlarla iqtisadi münasibətlərin effekliyinin artırılması və sair.

İqtisadi təhlükə yarada bilən daxili mənbələr makroiqtisadi qeyri sabitlik, ölkə iqtisadiyyatının regional və sahə baxımından qeyri mütənasib inkişafı, iqtisadiyyatın düzgün tənzimlənməməsi nəticəsində inhisarçılığın yaranması və bazar rəqabətinin pozulması, qiymətlərin artması və güclü inflyasiyanın baş verməsi, iqtisadi artım tempinin aşağı düşməsi, işsizlik səviyyəsinin artması, ərzaq qıtlığının baş verməsi, sosial məsələlərin vaxtında həll olunmaması nəticəsində sosial təbəqələşmənin güclənməsi, fiskal və pul-kredit siyasətinin həyata keçirilməsində buraxılan səhvlər, insanların təsərrüfat və məişət fəaliyyəti və ya təbii fəlakətlər nəticəsində baş verən ekoloji böhranlar və digər bu kimi amilləri göstərmək olar.

**İqtisadi təhlükəsizlik göstəricilərinin təhlili.** Dünya təcrübəsi göstərir ki, ölkənin iqtisadi təhlükəsizliyi üçün ən qorxulu amil iri miqyaslı korrupsiya və inhisarçılıqdır. İri miqyaslı kor-

rupsiya və inhisarçılıq ölkənin təkcə sosial-iqtisadi həyatına deyil, həm də siyasi- ictimai, mənəvi-ideoloji dayaqlarına ağır zərbə vurur. Korrupsiyanın ən ağır nəticələri özünü ölkə iqtisadiyyatında kölgə və ya gizli iqtisadiyyatın səviyyəsinin və inhisarçılığın həddindən artıq yüksəlməsində göstərir. Həm kölgə iqtisadiyyatı, həm inhisarçılıq dövlətinin iqtisadi gücünün zəifləməsinə, dövlət büdcəsinə daxilolmaların azalmasına , pul dövriyyəsi qanunauyğunluqlarının pozulmasına, kiçik biznesin, kiçik və orta sahibkarlığın zəifləməsinə, əhalinin həyat səviyyəsinin pisləşməsinə, sosial təbəqələşmənin kəsginləşməsinə və nəhayət ölkədə sosial-ictimai sabitliyin pozulmasına səbəb olan əsas amillərdir.

İqtisadi sahədə korrupsiya və rüşvətxorluq şəxsi mənafeyi hesabına, dövlətin iqtisadi mənafelərinə, əhalinin sosial şəraitinə, dövlətin sosial-iqtisadi siyasətinə ciddi zərbə olduğu üçün olduqca təhlükəli bir haldır. Korrupsiya eyni zamanda "kölgə" iqtisadiyyatının güclənməsinin bir vasitəsidir.

Rüşvətxorluğun artmasına təsir göstərən səbəb təkcə rüşvətalma meyli deyil, eyni zamanda bəzi ölkələrə və millətlərə xas olan rüşvətvermə meyllərinin də yüksək olmasıdır. İqtisadi təhlükə mənbəyi kimi korrupsiya və rüşvətxorluğun nə dərəcədə ciddi olduğunu bir daha o fakt sübut edir ki, BMT, Avropa Şurası və digər bu kimi beynəlxalq qurumlar, dövlətlər, beynəlxalq qeyri-dövlət təşkilatları tərəfindən korrupsiya və rüşvətxorluğa qarşı xüsusi komissiyalar yaradılmış, hesabatlar sistemi qurulmuş və onların nəticələri mütəmadi olaraq dünya ictimaiyyətinə çatdırılır.

Bunlardan ən nüfuzlusu Birləşmiş Millətlər Təşkilatı tərəfindən yaradılmış "Korrupsiyaya qarşı Konvensiya" (UNCAC) adlı təşkilatdır. UNCAC 2003-cü ilin dekabr ayında 111 dövlət tərəfindən imzalanmış, 30-dan çox ölkə tərəfindən ratifikasiya edilmiş və 2005-ci ilin dekabr ayında qüvvəyə minmişdir. Hazırda Konvensiyanı 140 dövlət imzalamış və 70-dən çox dövlət ratifikasiya etmişdir.

Azərbaycan Respublikası bu Konvensiyanı 27 fevral 2004-cü il tarixində imzalamaqla ona qoşulmuşdur. Digər bir beynəlxalq nüfuzlu təşkilat 1999-cu ildə Avropa Şurası tərəfindən təsis edilmiş "Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO)"-dur. Təşkilatın qərargahı Strasburq şəhərində yerləşir. GRECO üzv dövlətlərin Avropa Şurasının antikorrupsiya standartlarına əməl olunmasının monitorinqini həyata keçirir.

Korrupsiyaya qarşı mübarizədə 1993-cü ildə Almaniyada təsis edilən Beynəlxalq Şəffaflıq Təşkilatı (Transparency International), 2005-ci ildə Amerika Birləşmiş Ştatlarında (Vaşinqton) təsis edilən Global Integrity qeyri-hökumət antikorrupsiya təşkilatı, Antikorrupsiya Koordinasiyası üzrə Beynəlxalq Qrup (İGAC), Korrupsiyaya qarşı Avropa Partnyorları (EPAC) və digər bu kimi təşkilatlarda böyük rol oynayırlar. Bu beynəlxalq təşkilatlar apardıqları monitorinqlər,tədqiqatlar, təhlillər əsasında ölkələr üzrə "Korrupsiyanın Təsir İndeksi" (KTİ), Beynəlxalq Şəffaflıq Hesabatı, "Korrupsiya Qavrama İndeksi (CPI)", "Dünya Korrupsiya Barometri" və digər bu kimi hesabatlar tərtib edir, onları müvafiq beynəlxalq təşkilatlara və geniş dünya ictimaiyyətinə çatdırırlar. "Kölgə" və ya "gizli" iqtisadiyyatı amilinə birmənalı yanaşmaq olmaz. "Gizli" iqtsiadiyyat ümumi statistik göstəricilərdə öz əksini tapmır, lakin faktiki olaraq ölkədə məhsul və iş yerləri yaradır, əhalinin gəlirlərinə təsir edir və sair. "Gizli" və ya "kölgə" iqtisadiyyatın həcmini müəyyən etmək olduqca çətindir və ona görə də bu göstərici nisbi qəbul edilir.

Korrupsiya və rüşvət halalrı Azərbaycanda da mövcuddur. Onunla mübarizə üçün dövlət bütün imkanlardan istifadə edir. 13 yanvar 2004-cü ildə "Korrupsiyaya qarşı mübarizə" haqqında qanun qəbul edilmiş, xüsusi komissiyalar, o cümlədən Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası, Respublika Prokurorluğu daxilində xüsusi şöbə yaradılmışdır."Kölgə" iqtisadiyyat problemi digər keçid iqtisadiyyatlı ölkələrdə olduğu kimi Azərbaycanda da mövcuddur. Son dövrlərdə ölkəmizdə aparılan iqtisadi islahatlar, vergi qanunvericiliyinin təkmilləşdirilməsi, milli hesablar sisteminə uyğun hesabat sisteminin tətbiqi, iqtisadiyyatda demokratikləşmə nəticəsində onun həddi xeyli aşağı düşmüşdur. Belə ki, Rusiya Həmkarlar Təşkilatının illik icmalında, Azərbaycanda gizli iqtsiadiyyat 18-20%

civarında qiymətləndirilmişdir. 2010-cu ildə "gizli iqtisadiyyat"ın ÜDM-də payı 9,2%, 2014-cü ildə isə 9,0% səviyyəsində göstərilmişdir. MDB ölkələri arasında ən aşağı göstərici Azərbaycanda qeydə alınmışdır.

Ekspertlərin qiymətləndirilməsinə görə son illərdə inkişaf etmiş ölkələrdə "kölgə" iqtisadiyyatının həcmi, orta hesabla ÜDM-n 10 faizini, keçid iqtisadiyyatlı ölkələrdə 23-25 faizini, zəif inkişaf etmiş ölkələrdə 39-40 faizini təşkil etmişdir. Mütəxəssislər belə hesab edir ki, ölkə iqtisadiyyatında "gizli" iqtisadiyyatın həcmi 35-40 faiz keçərsə bu olduqca təhlükəlidir. Odur ki, dövlətin iqtisadi təhlükəsizlik siyasətində iqtisadiyyatın şəffaflaşdırılması, kölgə iqtisadiyyatının aradan qaldırılması və ya ən azı onun xüsusi çəkisinin aşağı salınması əsas yer tutmalıdır.

Azərbaycanın milli iqtisadiyyatına təhlükə yarada biləcək amillərdən biri də xarici borcun artmasıdır. Ölkənin dünya iqtisadi və maliyyə mühitindəki mövqelərinin möhkəmləndirilməsi üçün, onun beynəlxalq ödəmə gücünün artırılması və xarici borclarının vaxtında ödənilməsi olduqca vacibdir. Milli iqtisadi maraqlar naminə dövlət qənaəti vasitəsilə, yəni dövlət kreditləri kanalları ilə daxil olan vəsaitdən səmərəli istifadə edilməsi və qaytarılması mexanizminin hüquqi bazasının təkmilləşdirilməsi dövlətin səmərəli fəaliyyətinin əsas sahələrindən biridir. Məhz bu amillər Azərbaycan dövlətinin beynəlxalq kredit və dövlət borcu siyasətinin strateji istiqamətlərinin əsasını təşkil edilir. Dövlət borclarının alınması konkret məqsədlərin reallaşdırılmasına sərf olunmalı və iqtisadi cəhətdən sərfəli və səmərəli olmalıdır.

İqtisadiyyatın maliyyə dayanıqlığı və xarici sərmayənin ölkəyə cəlb edilməsi baxımından dövlətin valyuta ehtiyatlarının həcmi ciddi əhəmiyətə malikdir. Məhz bu səbəbdəndir ki, Azərbaycan hökuməti valyuta ehtiyatlarının artırılması siyasətinin davamlılığını təmin etmişdir. Nəticədə Azərbaycanın strateji valyuta ehtiyatlarının həcmi 2003-cü ildə 1,6 milyard ABŞ dolları olduğu halda, ötən illər ərzində dəfələrlə artaraq 2013-2014-cü illərdə artıq 50 milyard ABŞ dollarına çatmışdır. Sonrakı illərdə dünya bazarlarında neftə tələbatın və qiymətinin aşağı düşməsi, o cümlədən ölkə valyutasının dayanıqlığının və məzənnəsinin qorunması məqsədi ilə istifadə nəticəsində ölkənin valyuta ehtiyatları bir qədər azalmışdır. Hazırda ölkənin strateji valyuta ehtiyatları təxminən 40 milyard ABŞ dolları təşkil edir ki, bunun da təxminən 33 milyard dollarını Dövlət Neft Fondunun, qalan hissəsini isə Mərkəzi Bankın ehtiyatları təşkil edir. Başqa sözlə ölkənin strateji valyuta ehtiyatının təxminən 18 faizə qədəri Mərkəzi Banka, digər 82 faizi isə Neft Fonduna məxsusdur. Buradan göründüyü kimi ölkənin xarici valyuta ehtiyatları illik ÜDM-in həcminə bərabərdir. Halbuki 2003-cü ildə müvafiq göstərici cəmi 22 faiz idi. Həmçinin qeyd etmək lazımdır ki, ölkəmizin valyuta ehtiyatları onun xarici borcundan 8 dəfə çoxdur. Hazırda ölkənin valyuta ehtiyatları 3 illik mal və xidmətlərin idxalına imkan verəcək qədərdir.

Strateji valyuta ehtiyatı nə qədər çox olarsa, bu, ölkəmizin maliyyə dayanıqlığının əsası kimi xarici investisiyaların cəlb edilməsində etibarlı tərəfdaş statusunu gücləndirir və maliyyə təhlükəsizliyini əsaslandırır. Ölkənin maliyyə imkanlarının genişlənməsi və strateji valyuta ehtiyatlarının həcminin artması beynəlxalq kredit reytinq agentlikləri tərəfindən də yüksək qiymətləndirilir və hazırkı reytinq qiymətləndirmələrində Azərbaycan investisiya mühiti normal olan və həmçinin maliyyə dayanıqlığı yüksək qiymətləndirilən ölkə olaraq səciyyələndirilir. Həmçinin bu reytinq dərəcələri xarici investorların ölkəyə çağırışı kimi də qiymətləndirilə bilər.

Ölkənin iqtisadi təhlükəsizliyi üçün yaranan təhdidlərdən biri xarici borc problemi olduğu üçün onun idarə edilməsi xüsusi diqqət tələb edir. Xarici borcu bir sıra göstəricilərə görə təhlil etməklə ölkənin iqtisadi təhlüksizliyini qiymətləndirmək olar. Aşağıdakı cədvəldə 2010-2016-cı illər üzrə Azərbaycanın xarici borcunun müxtəlif göstəricilərə görə dinamikası verilmişdir (Cədvəl 2). Buradan göründüyü kimi 2010-2016-cı illərdə dövlətin xarici borcunun artması ÜDM-də xüsusi çəkisinin 7,2%-dən 20,4%-ə qədər yüksəlməsinə səbəb olmuşdur. Xarici borcun ÜDM-də çəkisi ölkə iqtisadiyyatının borc yükünün səviyyəsini göstərir və maksimum olaraq 50 faizə qədər olmalıdır. Azərbaycanda bu göstərici cədvəldən də göründüyü kimi maksimum 20,4%-dir. Təhlükəsizlik

baxımından bu göstərici beynəlxalq təcrübədə qəbul edilmiş göstəricidən aşağıdır. 1 iyul 2017-ci il tarixinə isə Azərbaycan Respublikasının xarici dövlət borcu 7172,6 mln. ABŞ dolları (12208,5 mln. manat), xarici dövlət borcunun Ümumi Daxili Məhsula (ÜDM) olan nisbəti 18,9% təşkil edir. Xarici dövlət borcu əsasən beynəlxalq maliyyə institutlarının kredit proqramlarından və infrastruktur layihələrindən, həmçinin beynəlxalq maliyyə bazarlarında yerləşdirilmiş qiymətli kağızlardan ibarətdir.

**Cədvəl 2**

***Azərbaycanın xarici borcunun makroiqtisadi göstəricilər üzrə dinamikası (mlrd.ABŞ dolları)***

| İllər | ÜDM | Xarici borc | Valyuta ehtiyatları | İxrac | Büdcə gəlirləri | Xarici borcun ÜDM-də xüsusi çəkisi(%) | Xarici borcun valyuta ehtiyatlarında xüsusi çəkisi (%) | Xarici borcun ixracda xüsusi çəkisi(%) | Xarici borcun büdcə gəlirlərində xüsusi çəkisi(%) |
|---|---|---|---|---|---|---|---|---|---|
| 2010 | 52,9 | 3,8 | 30,0 | 26,6 | 9,2 | 7,2 | 12,7 | 14,3 | 41,3 |
| 2011 | 66,0 | 4,8 | 40,0 | 34,4 | 15,7 | 7,3 | 12,0 | 14,0 | 38,7 |
| 2012 | 69,7 | 5,7 | 46,0 | 34,1 | 17,3 | 8,2 | 12,4 | 16,7 | 41,9 |
| 2013 | 74,1 | 6,7 | 48,0 | 32,8 | 19,5 | 9,0 | 14,0 | 20,4 | 43,8 |
| 2014 | 75,2 | 6,5 | 50,9 | 30,2 | 18,4 | 8,6 | 12,8 | 21,5 | 45,1 |
| 2015 | 53,0 | 6,9 | 39,4 | 16,6 | 17,5 | 13,0 | 17,5 | 41,8 | 38,3 |
| 2016 | 37.8 | 6.9 | 38.0 | 13,1 | 17,5 | 18,3 | 18,1 | 52,7 | 24,4 |

**Mənbə:** www.maliyye.gov.az, www.cbar.gov.az, www.stat.gov.az və müəllif hesablamaları

Xarici borc səviyyəsinin qiymətləndiirlməsində istifadə olunan digər göstəricilərdən biri xarici borcun valyuta ehtiyatlarında xüsusi çəkisinin müəyyən edilməsidir. Əsasən 2010-2014-cü illər ərzində ölkənin strateji valyuta ehtiyatları artmış və xarici dövlət borcunu üstələmişdir. Strateji valyuta ehtiyatalrının 87% -i Neft Fondunun payına düşdüyü üçün neft qiymətlərinin aşağı olması 2015 və 2016-cı illərdə valyuta ehtiyatalrının azalmasına səbəb olmuşdur. 2015-ci ilə nisbətən məcmu valyuta ehtiyatalrı 1,4 milyard azalmış və müvafiq göstərici 2016-cı ildə 38 milyard dollar civarında olmuşdur. Eyni zamanda ölkənin starteji valyuta ehtiyatları xarici dövlət borcundan təqribən 6 dəfə çoxdur.

Xarici borcun qiymətləndirilməsinin digər göstəricisi xarici borcun illik ixracın həcminə nisbətidir ki, bunun vasitəsilə ölkənin illik cari borclarını ödəmək qabiliyyəti başa düşülür. 2010-cu ildə xarici borcun ixracda xüsusi çəkisi 14,3% oduğu halda, 2015-ci ildə müvafiq göstərici 41,8% təşkil edib. 2010-cu illə müqayisədə bu göstəricinin artmasına səbəb həmin illər ərzində ixracın azalmasıdır. O cümlədən, dünya bzarında neftin qiymətinin ucuzlaşması ixrac potensialının əsasını təşkil edən neft məhsullarının ixracının azalmasına səbəb olmuşdur. Dövlət xarici borcunun ixraca nisbəti isə 2016-cı ilin əvvəlinə 52,7% təşkil edib ki, bu göstərici maksimal həddi olan 275%-dən aşağıdır.

Büdcə gəlirlərinin, o cümlədən ixrac sahəsində iqtisadi fəaliyyət ilə bağlı büdcə gəlirlərinin azalması, büdcə tənzimlənməsinin zəifləməsi iqtisadi təhlükəyə səbəb olur. Bu baxımdan dövlətin apardığı uğurlu maliyyə siyasəti və islahatları nəticəsində maliyyə bazarlarının inkişafı stimullaşdırılmalı, bank sisteminin möhkəmlənməsinə və maliyyə vasitəçilik funksiyasının yaxşılamasına əlverişli şərait yaranmalıdır. Cədvəldəki məlumatlardan göründüyü kimi 2014-cü ilə kimi xarici borcların büdcə gəlirlərinə olan nisbəti 40 faizdən yuxarı olduğu halda son illərdə bu göstərci nisbətən aşağı düşərək 2015-ci ildə 38,3 faiz, 2016-cı ildə isə 24,4 faiz təşkil etmişdir.

Təhlildən göründüyü kimi ölkənin iqtisadi təhlükəsizlik sistemində maliyyə dayanıqlığı kifayət qədər təmin olunmuşdur və məqsədyönlü şəkildə idarə olunur.

Milli iqtisadi təhlükəsizlik problemləri içərisində əsas yerlərdən birini maliyyə təhlükəsizliyi tutur. Maliyyə-pul sferasında mövcud olan hər hansı bir sistemsizlik, pul-kredit və fiskal

siyasətin düzgün aparılmaması, büdcə-vergi sistemində, dövlətin qiymət siyasətində iqtisadi tənzimləmə vasitələrindən düzgün istifadə edilməməsi bu sahədə ciddi problemlərin – inflyasiyanı, milli valyutanın dəyərdən düşməsini, dövlətin xarici borclarının artmasını, iqtisadi artım tempinin aşağı düşməsini, dövlətin xarici borclarının artmasını, büdcə kəsirinin artmasını, iqtisadi artım tempinin aşağı düşməsini, əhalinin yaşayış səviyyəsinin pisləşməsini və digər bu kimi problemlərin yaranmasını şərtləndirə bilər ki, bu da son nəticədə çox ciddi iqtisadi təhlükə mənbəyinə çevrilə bilər. Azərbaycanın iqtisadi təhlükəsizliyinin qorunmasında onun beynəlxalq maliyyə təşkilatları ilə balanslı, ikitərəfli münasibətlərin qurulmasının xüsusi əhəmiyyəti vardır. Ölkəmizdə flaqman layihələrin həyata keçirilməsi, makroiqtisadi sabitliyin qorunması və təhlükəsizliyin gücləndirilməsi məqsədilə xarici kreditlərdən istifadə olunmuşdur. Lakin kreditlərdən təyinatına uyğun istifadə olunmazsa, xaos yarana bilər. Belə ki, kapitalın ölkəyə axını üzərində nəzarət zəifləyər və maliyyə riski yaranar.

Inkişaf etməkdə olan ölkələrdə insan amilinin ölkəni tərk etməsi iqtisadi təhlükə yaradan mühüm problemlərdən biri sayılır. İnkişaf etmiş ölkələr ixtisaslı ucuz işçi qüvvəsini idxal edir nəticədə inkişaf etməkdə olan ölkələr savadlı, ixtsiaslı insan poetnsialını itirmiş olurlar. İnsan kapitalının axınına iqtisadi, siyasi və subyektiv səbəblər vardır. Ölkədə mövcud olan iqtisadi qeyri-sabitlik, əmək haqqının az olması, ixtisasına uyğun işlə təmin oluna bilməməsi, elmə, tədqiqata əhəmiyyət verilməməsi, insan potensialının inkişafına investisiyanın aşağı olması, işləmək istəyənlərə maneələrin olması və digər obyektiv, subyektiv təsirlər nəticədə intelektual insanalrın ölkəni tərk etməsinə səbəb olur. Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuş "Milli iqtisadiyyat perspektivi üzrə strateji yol xəritəsi"ndə insan kapitalının inkişaf etdirilməsi əsas starteji hədəf kimi qarşıya qoyulmuşdur. İnnovativ inkişafa nail olmaq üçün intelektual, texnoloji potensialın və bu sahəyə kapital qoyuluşunun artırılması, müxtəlif ölkələrin təcrübəsini tədqiq etməklə ölkəmizdə səmərəli tətbiq edilməsi zəruridir.

Milli iqtisadiyyatın inkişafının möhkəmliliyini qorumaq üçün onun rəqabət qabiliyyətinin artırılması dövlətin iqtisadi siyasətinin əsasını təşkil etməlidir. Bütün ölkələrdə olduğu kimi Azərbaycanda iqtisadiyyatın rəqabət qabiliyyəti sonda ölkənin iqtisadi təhlükəsizliyinin göstəricisidir. Milli iqtisadiyyatın rəqabət üstünlüyü hər şeydən əvvəl ayrı-ayrı sahələrin və müəssisələrin rəqabət qabiliyyətliliyi və bazarda onun məhsullarına olan tələbatı ilə, sahənin və müəssisələrin inkişafının texniki-texnoloji səviyyəsi ilə, mənəvi, sosial-mədəni potensialı ilə və sahənin inkişafının investisiya təminatı ilə şərtlənir. Iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsi sağlam milli iqtisadiyyatının formalaşmasının, onun təhlükəsizliyinin qorunub saxlanılmasının əsas amilidir.

Rəqabət qabiliyyətliliyin təmin olunması amillərindən biri də elm və əməktutumlu sahələrin inkişaf etdirilməsidir. Istehsalatın elm və texnologiyanın inkişafının istehsalata tətbiqi və yeni fundamental sahələrin işlənilməsi rəqabət qabiliiyyəti artırır və innovasiya sisteminin inkişafına müsbət təsir göstərir. Belə ki, elmitədqiqat işlərdən istifadə etməklə istehsal sahələrində yeni texnoparklar, startaplar, biznes inqubatorları kimi mərkəzlər yaradıb innovativ inkişafa nail olmaq mümkündür. Bu gün ölkəmizdə milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyin artırılmasında elm sahələrinin innovasiya fəaliyyətinin stimullaşdırılması və dünya bazarında rəqabətə davam edə biləcək yeni məhsulların istehsalı, elmi və texnoloji naliyyətlərə əsaslanan yeni komplekslərin istifadəyə verilməsi dövlətin innovasiya siyəsətinin əsasını təşkil edir.


Rəqabət qabiliyyətliyinin həm birbaşa, həm dolayı qiymətləndirilməsi yalnız digər ölkələrin analoji göstəriciləri ilə müqayisədə real əhəmiyyətlidir. Bu zaman isə müqayisə obyektinin seçilməsi problemi ortaya çıxır. Bu problemin həlli üçün dünya təcrübəsində rəqabət qabiliyyətliyinə görə ölkələrin reytinqini qiymətləndirməyə imkan verən müxtəlif metodlar işlənib hazırlanmışdır.

Hazırda dünyanın bir çox beynəlxalq təşkilatları ölkələrin rəqabət qabiliyyətlilik reytinqinin hesablanması və qiymətləndirilməsi üçün müvafiq göstəricilər sistemini yaradırlar.

Bu təşkilatlardan biri də "Ümumdünya İqtisadi Forumudur" (World Economic Forum, WEF). "Qlobal Rəqabətlilik Hesabatları" adlı sənədə əsasən artıq 30 ilə yaxındır ki, bu forum tərəfindən dövlətlərin milli iqtisadiyyatlarının rəqabətə davamlılıq səviyyəsinin öyrənilməsi və qiymətləndirilməsi həyata keçirilir. "Qlobal Rəqabətqabtlilik İndeksi" 12 əsas o cümlədən, o cümlədən, "institutların keyfiyyəti", "makroiqtisadi sabitlik", "səhiyyə və ilkin təhsil", "ali təhsil və peşə hazırlığı", "əmtəə və xidmət bazarlarının səmərəliliyi", "əmək bazarının səmərəliliyi", "maliyyə bazarlarının inkişafı", "texnologiyi səviyyə", "daxili bazarın həcmi", "şirkətlərin rəqabət qabiliyyəti" və "innovasiya potensialı" üzrə meyarlar əsasında müəyyənləşdirilir. Ümumdünya İqtsiadi Forumun 2010-2017-ci illər üzrə hesabatalrına əsasən trend amilinin təsiri ilə Azərbaycan reytinq qiymətləndirilməsində iştirak edən 137 ölkə arasında yüksək pillələrdə olmuşdur.

**Qrafik №1**

***Qlobal Rəqabətlilik İndeksi***




**Mənbə:** *www.gmarket.ru. Ümumdünya İqtisadi Forumun illlik hesabatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

2010-2011-ci ildə Azərbaycan bu siyahıda 4.31 indeksi ilə 55-ci yerdə qərarlaşmışdır və post sovet ölkələri arasında 3-cü yerdə mövqeyini saxlamışdır. Baxılan dövr ərzində Azərbaycan rəqabətlilik indeksini daha da yaxşılaşdırmaqla reytinqdə irəlləmişdir. Reytinq sıralanmasına görə 2016-cı ildə 40-cı yerdə, 2017 ci ildə isə 37-ci yerdə olmuşdur. 2018-ci ildə isə 2 pillə irəlliləyərək, 4.7 indeksi ilə 35-ci yerə layiq görülmüşdür. Qiymətləndirməyə əsasən Azərbaycan post sovet ölkələrindən öndədir, Polşa, Portuqaliya, İtaliya və Türkiyə kimi ölkələri qabaqlayıb. Azərbaycan hesabatda bütün indekslər üzrə yaxşı nəticələr əldə edib. Belə ki, institutların, xüsusilə hökümət institutlarının keyfiyyətinə görə və innovasiyalara görə 33-cü yerdə, əmək bazarlarının səmərəliliyinə 31-ci yerdə qərarlaşıb. Maliyyə bazarlarının inkişafına və təhsil indekslərinin qiymətləndirilməsinə görə hesabatda müvafiq olaraq aşağı yerlərdə 79-cu və 74-cü yerlərdə göstərilib. Azərbaycanın reytinq cədvəlində ön sıralarda yer alması davamlı iqtisadi islahatalrın aparılmasını, ölkənin iqtisadi təhlükəsizliyinin gücləndirilməsini, sosial-iqtsiadi inkişafı əks etdirir.

## NƏTİCƏ

Qeyri rəsmi iqtisadiyyatın ölkənin iqtsiadi təhlükəsizliyinə, inkişaına və insanların mənafeyinə mənfi təsiri olduğu üçün nəzarət mexanizmi təkmilləşdirmək və bu sahədə boşluqların aradan qaldırılması üçün cəzaları, sanksiyaları sərtləşdirmək lazımdır. Ictimai nəzarət və "qaynar xətlərin" sayı artırılmalıdır. Eyni zamanda dövlət və müstəqil audit-təftiş fəaliyyətini gücləndirmək lazımdır.

İnsan amili milli iqtsiadiyyatın inkişafında, əmək məhsuldarlığının artırılmasında, istehsal və xidmət sektorlarının rəqabət qabiliyyətinin yüksəldilməsində həlledici rol oynadığı üçün insan kapitalının təkmilləşdirilməsi istiqamətində investisiya qoyuluşunu stimullaşdırılması və təhsilin bütün mərhələlərində keyfiyyətin yüksəldilməsi zəruridir.

Azərbaycan dövlətinin xarici orçarı daha çox iqtisadi islahatların və beynəlxalq strateji investisiya layihələrinin maliyyələşdirilməsi məqsədi ilə neft sektoruna, elektrik enerjisi sektoruna, yol tikintisi və nəqliyyata, infrastruktur sahələrinin inkişafına qoyulan investisiyalar təşkil

edir. Azərbaycanın xarici orçarı daha çox güzəştli beynəlxalq kreditlərdən ibarətdir və onların faiz dərəcələri orta hesabla 2-4% təşkil edir. Bu isə beynəlxalq aləmdə o qədər də yüksək borç faizi hesab edilmir. Eyni zamanda nəzərə almaq lazımdır ki, keçid dövrünün ilk illərində neft müqavilələri ilə bağlı alınmış kreditlərin bəzilərinin borç faizi bu rəqəmlərdən də az olmuşdur və kreditlərin həcmi, təyinatı, müddəti milli iqtisadiyyatın maliyyə təhlükəsizliyi baxımından səmərəli qiymətləndirilmişdir.

Müasir qloballaşma şəraitində beynəlxalq inteqrasiyanın aktual problemlərindən biri kimi milli iqtisadi təhlükəsizliyin qorunması və ölkə iqtisadiyyatının rəqabətqabiliyyətlilik reytinqinin yüksəldilməsi istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi sosial-iqtisadi inkişaf siyasəti özünün müsbət nəticələrini göstərmiş və ölkə son illərdə özünün inkişaf tempini saxlaya bilmişdir.

## ƏDƏBİYYAT SİYAHISI

1. 2007-ci il mayın 23 Prezident İlham Əliyevin Sərəncamı "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası".
2. Экономическая безопасность. Производство – Финансы-Банки. Под ред. Акад.В.К. Сенчагова М.: ЗАО Финстатинформ, 1998, 621 с.
3. Общая экономическая теория денег и креди- та / Под ред. Л.Видяпина. М.: ЮНИТИ, 1995.
4. Молчан А.С., Саенко С.В. Экономическая безопасность государства: современное состояние, угрозы и пороговые значения. Научные труды КубГТУ, №2, 2016 г
5. www.azstat.gov.az
6. www.gmarket.ru
7. www.vkp.ru/upload/global/1611_report_informal_economy

**Мусаева Д. Г.**
Мингечаурский Госуварственный Университет

**Безопасность национальной экономики: угрозы и направления обеспечения безопасности**

**Резюме**

**Цель исследования.** Исследование основных показателей, влияющих на экономическую безопасность страны.

**Методология исследования.** Обобщение, анализ, статистические и графические методы.

**Результаты исследования.** Были сделаны анализы человеческого фактора, внешнего долга, скрытой экономики и других показателей.

**Ключевые слова.** *экономическая безопасность, теневая экономика, внешний долг, человеческий фактор, конкурентоспособность.*

**Musayeva J. Q.**
Mingachevir State University
Sub-faculty of "Economy"

**National economy's security: threats and security issues**

**Abstract**

**Purpose of the resarch.** Main factors affect the economic security of the country has been resarched.

**Methodology.** Generalization, analiysis, statistical, graphics method

**Findings.** The human factor, external debt, informal economy and other factors were analyzed.

**Keywords**. *Economic security, informal economy, external debt, human factor, competitiveness* .

**Daxil olub:** 07. 07.2017

**Rəy verib:** AMEA İqtisadiyyat Institutunun *"Qloballaşma və beynəlxalq iqtisadi münasibətlər"* şöbəsinin əməkdaşı i.f.d Sarıyev Ə.B.